**UOT 378**
https://doi.org/10.59849/2311-8482.2025.4.75

**MƏHSƏTİ SÜLEYMANOVA***

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ QONAQ KULTU

*İnsan hərdən səfərə çıxmalı olur, evindən ayrılır və bu zaman müvəqqəti qalmaq yerinə, yeyib-içməyə və s.-ə ehtiyacı yaranır. Əvvəllər indiki kimi otel, motel, qonaq evlərinin olmadığı dövrlərdə türklərə aid iri şəhərlərdə və yaşayış yerlərində insanların bu ehtiyacını qarşılamaq üçün karvansaralar fəaliyyət göstərirdi. Ancaq o dövrdə bütün yaşayış yerlərində karvansaralar yox idi. Ona görə də insanlar karvansaraların funksiyasını öz üzərlərinə götürməli olur, gələn qonağı evlərində qarşılayır, onun bütün ehtiyaclarını ödəməyə səy göstərirdilər. Sual oluna bilər, heç tanımadığı adamı şəxsi evində qarşılayıb bütün ehtiyaclarını ödəməyə insanları nə vadar edirdi? Nəzərə alsaq ki, keçmiş dövrlərdə heç də indiki kimi iri, çoxotaqlı evlər, yemək bolluğu yox idi. Heç şübhəsiz ki, bu halın arxasında hökmən müəyyən bir inanc dayanmalı idi ki, insanlar öz rahatlıqlarının pozulması hesabına tanımadıqları birinin qayğısına qalsınlar. Bu inanc Tanrı qonağı inancıdır. Qonaq Allah tərəfindən göndərilmiş şəxs hesab edildiyi üçün onun ev sahibi tərəfindən gülərüzlə qarşılanması, bütün zəruri ehtiyaclarının ödənilməsi vacib sayılmış və buna əldən gəldiyi qədər səy göstərilmişdir.*

***Açar sözlər:*** *kult, inanc, Tanrı qonağı, karvansara, adət*

## Giriş

İnsan hərdən səfərə çıxmalı olur, evindən ayrılır və bu zaman müvəqqəti qalmaq yerinə, yeyib-içməyə və s.-ə ehtiyacı yaranır. Əvvəllər indiki kimi otel, motel, qonaq evlərinin olmadığı dövrlərdə türklərə aid iri şəhərlərdə və yaşayış yerlərində insanların bu ehtiyacını qarşılamaq üçün karvansaralar fəaliyyət göstərirdi. Ancaq o dövrdə bütün yaşayış yerlərində karvansaralar yox idi. Ona görə də insanlar karvansaraların funksiyasını öz üzərlərinə götürməli olur, gələn qonağı evlərində qarşılayır, onun bütün ehtiyaclarını ödəməyə səy göstərirdilər. Sual oluna bilər, heç tanımadığı adamı şəxsi evində qarşılayıb bütün ehtiyaclarını ödəməyə insanları nə vadar edirdi? Nəzərə alsaq ki, keçmiş dövrlərdə heç də indiki kimi iri, çoxotaqlı evlər, yemək bolluğu yox idi. Heç şübhəsiz ki, bu halın arxasında hökmən müəyyən bir inanc dayanmalı idi ki, insanlar öz rahatlıqlarının pozulması hesabına tanımadıqları birinin qayğısına qalsınlar. Bu inanc Tanrı qonağı inancıdır[1]. Qonaq Allah tərəfindən göndərilmiş şəxs hesab edildiyi üçün onun ev sahibi tərəfindən gülərüzlə qarşılanması, bütün zəruri ehtiyaclarının ödənilməsi vacib sayılmış və buna əldən gəldiyi qədər səy göstərilmişdir. Bəs Tanrı qonağı kimdir? Adətən qəfildən gələn, ev sahibinin əvvəlcədən tanımadığı qonaqlara Tanrı qonağı, ya da Allah qonağı deyilirdi. Bu qonaq getməyə heç yeri olmayan qonaqdır. Belə adamın Tanrı qonağı adlandırılmasının səbəbi xalq arasında onun ev sahibini sınamaq üçün Tanrı, yaxud Allah tərəfindən göndərilməsi inancıdır. Türklər belə insanların Allahın onların necə bir insan olmasını sınamaq üçün göndərildiyinə inanardılar. Türk tədqiqatçısı Ramazan Arı Uyğur Tazebaya istinadən yazır ki, yakut və qırğızlar arasında qonaqpərvərlik qaydalarına əməl etməyənlərə verilən cəzalar öz tayfasından uzaqlaşdırılmaq və ya cəmiyyətdən tamamilə qovulmaqdır (6, s.214). Bu sitat istər-istəməz adamı düşünməyə məcbur edir. Niyə yad qonağa görə tayfanın üzvü belə ağır cəzalandırılsın ki? Belə güman etmək olar ki, yakut və qırğızlar arasında qonağa lazımınca hörmət etməyən şəxslər və toplumlar Tanrının qəzəbinə tuş gələcəyi inancı vardır. Bu qəzəbdən qorunmaq üçün qonağı lazımınca qulluq etməyən şəxslər toplumun özü tərəfindən cəzalandırılırdı.

Türk mədəniyyətində qonaq kultu o qədər dərinə işləyib ki, qonaqlar kimliyinə, gəliş məqsədinə görə növlərə bölünür. Bu adlandırmaların hər biri xüsusi termin olub dilin və mədəniyyətin zənginliyindən xəbər verir. Hikmet Demirci və Şınaray Bürkütbayeva müxtəlif müəlliflərə istinad edərək yazırlar: "Qazaxıstanda konak\konaq adlandırılan qonaqlar məqsədlərinə uyğun olaraq adlanır və xüsusi qaydalara uyğun qəbul edilir. Qazax qonaqları müxtəlif adlarla tanınır, o cümlədən *kuday konak, sıy konaktik, arnayı konak, kıdırma konak, kılkıma konak.* Türkcə "Tanrı qonağı" olaraq da bilinən Kuday konaklar yoldan gələn, evsiz, evsiz, ac insanlardır. Qazax cəmiyyətinin hörmətli sıy qonaqları kimi, quday qonaqları üçün də qoyun kəsilir və ya qışda kəsilmək üçün bəslənən kök

[1] Qonağın bu qədər əziz tutulmasının arxasında Tanrı qonağı inancının dayanması ehtimalı prof.Əfzələddin Əsgərdə aiddir. Prof. Əfzələddin Əsgər bu məsələ ilə bağlı ehtimallarını bizimlə şifahi şəkildə bölüşüb. Ona görə qaynaq göstərə bilmirik.

heyvanın əti süfrəyə verilir. Arnayı konak doğum, sünnət, ad günləri və toy mərasimlərinə dəvət edilən xüsusi qonaqlardır və onlar üçün heyvan kəsilərək əti süfrəyə verilir. Kıdırma qonak uzaqdan gələn qohumlardır. Qılkıma qonak ziyafətə və ya yaxşı bir yeməyə dəvətsiz gələn və doyumaq bilməyən acgözlərdir. Bu qonaqlar qohum olduğu kimi, qonşular və ya qəriblər ola bilər. Bu qonaqlara da ət verilir. Qazax mədəniyyətində fərqli terminlərlə adlandırılan qonaqların ümumi xüsusiyyəti onların ev sahibləri tərəfindən yaxşı qarşılanması və hörmət edilməsidir” (2, s.200).

Tərəkəmələrdə gəlinin qonağın ayağını yuması bunun kult olduğunu göstərir. Şəki rayonunun Göynük kəndlərində evin qızı, qadını gələn qonağın ayaqqabılarını da yuyub astanaya səliqə ilə qoyardı. Bu ərazidə qonağa hər cür şərait yaradıldılmaqla, onu naz-nemətlə bəsləməklə kifayətlənmir, gedəndə pay-ürüşlə də yola salırlar. Əvvəllər evdə qonaq olanda uşaq doğulubsa (keçmişdə uşaq indiki kimi xəstəxanada yox, evdə doğulurdu), uşağın adını qonaq qoymalı idi. Evdə qonaq otağının ayrılması, qonaq üçün saxlanan xüsusi yatağın, yorğan-döşəyin olması, qonaq üçün ayrılmış qab-qacaqdan başqa vaxt istifadə olunmaması və s. kimi qaydaların mövcudluğu da türk xalqlarında qonağın kult səviyyəsinə qaldırılmasından xəbər verir. Bu qonaqsevərlik Azərbaycan mədəniyyətinin bütün qatlarına nüfuz etmişdir. Arxasında inanc olmasa, o boyda əzizlik ola bilməz. Bir millətin ən mühafizəkar yeri onun mədəniyyəti və adət-ənənəsidir. Baxmayaraq ki, müasir dövrdə qonağa münasibətin bir qədər dəyişilmiş olduğunu görürük, amma qonaq kultunun hədsiz dərinə işləməsi yenə də onu aktual olaraq saxlayır. Düşünürük ki, hələ çox uzun illər bu belə də qalacaq.

Qonaqsevərlik türk kübarlığının ən bariz özünü göstərdiyi yerdir. Türk tədqiqatçısı Şeyma Mertin sözləri ilə desək, “qonaqpərvərlik şərəf və zadəganlığın ən böyük göstəricilərindən sayılır” (7, s. 74). Türk mədəniyyətində evinə düşmən gəlsə belə, onu qorumağa və onunla qonağın kimi davranmağa borclusan. Bununla bağlı Azərbaycan şifahi mədəniyyətində, eləcə də yazılı ədəbiyyatında nümunələr vardır. Ləman Vaqifqızı (Süleymanova) bu barədə yazır: “Digər türk xalqlarında olduğu kimi, Azərbaycan xalqında da qonaq kultu mövcuddur. Bu kult özünü ən müxtəlif səviyyələrdə, inanclarda, atalar sözü, məsəl və deyimlərdə, həmçinin digər folklor mətnlərində göstərir. Belə mətnlərdən biri də “Əli ilə Vəlinin nağılı”dır. Nağılın qəhrəmanlarından biri təsadüfən vaxtilə öldürdüyü kişinin evinə gəlib çıxır. Qarı və oğulları onu tanısalar da, qonaq olduğu üçün öldürmür, əksinə, kömək edirlər. Türk təfəkkürünə görə, ən qəvi düşmənin də evinə gəlsə, ona toxunmaq olmaz, çünki ev sığınacaqdır. Sənə sığınan düşməni öldürmək türk düşüncəsinə görə, namərdlikdir və çox böyük eyibdir. Bu nağıl istər-istəməz yadımıza Hüseyn Cavidin “Ana” pyesini salır. Çox güman ki, böyük ədib bu süjeti xalqdan götürmüşdür” (5, s. 9).

Evdə yeməyin ən yaxşısını böyüklərimiz həmişə qonaq üçün ayırmışlar. Evdə bişirilən yeməyin ərzağı ayrılanda ora hökmən qonaq payı da əlavə edilərdi. Bu qəfil gələn qonaq qarşısında xəcalətli qalmamaq üçün əvvəlcədən görülmüş tədbir idi. Qonaq süfrədən doymaya dura, bu, bizim xalqın düşüncəsinə görə, ən böyük ayıbdır. Özü yemədən yedirtmək türk xüsusiyyətidir. Bu həm də arxayınlıq yaradan bir haldır. “Kitabi-Dədə Qorqud” dastanında “Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı” formulu bir neçə dəfə işlədilir. Və yaxud: “Göq ala görklü çəmənə çadır dikdi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. Dügün etdi. Qalın Oğuz bəglərini ağırladı” (4, s.93). Bu, o deməkdir ki, ölkədə bolluqdur. Bolluq varsa, deməli, qonağın da yanında xəcalətli qalmayacaqsan.

“Qonağın qisməti özündən əvvəl gələr”, “Qonaqsız ev – susuz dəyirman”, “Qonağın duası qəbula keçər” kimi atalar sözləri, “Tanrı qonağı”, “Qonaq Allah qonağıdır” kimi deyimlər bu kultun Azərbaycan təfəkküründə nə qədər dərinə işlədiyinin göstəricidir. Qonaqla bağlı atalar sözü, deyim, rəvayət, nağıl və s. o qədər çoxdur ki, istər-istəməz bu xalqın qonağı müqəddəsləşdirdiyini düşünməmək mümkün deyil. Qonağa hörmət o qədər güclü olmuşdur ki, bu, dünyanın bir sıra səyyah və tədqiqatçılarının diqqətini çəkmiş, onlar bu hala heyranlıqlarını bildirmişlər. Ramazan Arı bu heyranlıqla bağlı müxtəlif əsərlərdən götürdüyü sitatları belə sadalayır: “Türk qonaqpərvərliyi xarici səyyahların də diqqətini çəkib. Tunisli səyyah İbn Battuta o zamanlar Ladik kimi tanınan Dənizlidə onu qonaq etmək üçün Ahi təşkilatının üzvləri arasında dava olduğunu bildirib. Anna Masala Osmanlı dövründə türk qonaqlarında “diş kirayəsi” adlı ödəmə adətindən bəhs edir. İspan yazıçısı Visente Blasko İbanez türklərin səyahətçilərə göstərdiyi şübhəsiz qonaqpərvərliyi yüksək qiymətləndirir. Fransız Dr A.Brayer Osmanlıların qonaqlarına hörmət və qonaqpərvərlik göstərdiyini, qonaq xəstə

olarsa, ev sahibinin həkim haqqını ödədiyini, hətta gedəndə qonağa hədiyyələr təqdim etdiyini heyranlıqla ifadə edir. Jean Jacques Rousseau "Emile" adlı əsərində türklərin özündən daha insanpərvər və qonaqpərvər olduğunu bildirir" (6, s. 215). Oxşar fikirlərə digər tədqiqatçıların da əsərlərində rast gəlirik: "Qədim türklərin ictimai həyatını təsvir edən tarixi mənbələrdə, dastanlarda, rəvayətlərdə türklərin qonaqpərvərliyindən bəhs edilir. Yunan səyyahı Priskos avropalı hunların qonaqpərvərliyindən danışır. Çin mənbələrində isə Göktürk və Uyğur türklərinin qonaqlarına verdiyi önəmdən bəhs edən xatirələr var. Tanınmış səyyah İbn Fədlan da öz səyahətnaməsində Oğuzların qonaqpərvərliyindən bəhs edir" (1, s.371).

Qonaq həmişə yad adam olmur, qəfil gəlmir. Bir çox hallarda qonağın gələcəyi əvvəlcədən ev sahibinə deyilir. Bu kimi hallarda qonağın qarşılanması daha təmtəraqlı olurdu. Ev-eşik, həyət-baca əvvəlcədən təmizlənir, qonaq otağının qapı-bacası açılıb havalandırılır, hava soyuqdursa, otaqda soba qalanır, əvvəlcədən ərzaq alınır, bir neçə cür yemək hazırlanır, süfrə açılırdı. Burada onu da xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan tərəkəmələri gələn qonağa evdəki hazır ətdən yemək hazırlamağı ayıb hesab edər, qonaq gəldikdən sonra onun adına ayrıca quzu kəsərdilər. Hətta dünən gəlib getmiş qonaq üçün kəsilən heyvanın ətindən də yeni gələn qonaq üçün yemək hazırlamazdılar. Bu adət tərəkəmələr arasında müasir dövrdə də davam etməkdədir[2].

Qonağa getdiyi bölgənin məşhur yeməkləri bişirilir, adətən, süfrədə aş və ət yeməkləri olardı. Evə gələn adamların ət yeməklərinə qonaq edilməsi digər türk xalqlarında da mövcud olmuşdur. Bu, hətta vacib hesab edilmişdir. Hikmət Dəmirçi və Şınaray Bürkütbayeva H.Orazəliyevə istinadən yazırlar: "Qazaxların adət-ənənələrini qələmə aldığı düşünülən "Tavke xanın Yeddi Qanunu"nda "Kim evinə gəlsə, onu qonaq et, qoyun kəsib yem ver" maddəsi var. Qazaxlarda ev sahibi qonaqlarını qarşılamırsa, ətə qonaq etmirsə, adət-ənənəyə uyğun olaraq xanın əmri ilə cəzalandırılırdı (2, s.199).

Əgər evdə qonaq varsa, evə digər qonağın aparılması etik hesab edilməmişdir. Bu xalq arasında zarafatla işlədilən bir deyimdə də özünü göstərir: "Qonaq qonağı istəməz, ev sahibi də heç birini". Çoxlu qonağın eyni zamanda qəbul edilməsi üçün ən məqbul yerlər karvansaralar hesab olunmuşdur.

Xalq təfəkkürünün məhsulu olan atalar sözü və deyimlərimiz ev sahibini qonaq qarşısında borclu hesab etdiyi kimi, qonaq getməyin də öz qaydaları olmasını bildirir. "Qonaq evə girənə kimi utanar, ev yiyəsi bundan sonra", "Qonaq ev sahibinin quludur. Hara qoydu, orada da oturar", "Qonaq umduğunu deyil, bulduğunu yeyər", kimi misallar qonaq getməyin də öz ədəbi olmasını xatırladır. Qonaq ev sahibinin göstərdiyi yerdə əyləşər, onun süfrəyə gətirdiklərini yeyər, ev sahibinin göstərdiyi yerdə qalar, yatar və s. Ev yiyəsinin üzünə xoş baxmasından qonağın sui-istifadəsi, getdiyi yerdə uzun-uzadı qalması xalq arasında xoş qarşılanmayıb. Bu qınaqlar özünü "Qonağa get deməzlər, altından döşəyi çəkərlər", "Qonaq birinci gün qızıldır, ikinci gün gümüş, üçüncü gün mis, dördüncü gün pis" atalar sözlərində tapmışdır. Yerli-yersiz qonaq gəlməyə də xalq arasında yaxşı baxılmayıb. Qonaq gələn şəxs də ev sahibinə və onun ailə üzvlərinə hörmətlə davranmalı, oturuşuna-duruşuna fikir verməli, ədəblə danışmalı, süfrə mədəniyyətinə əməl etməlidir.

Ev sahibi qonağı gülərüzlə qarşılayar, ona lazımınca hörmət etdikdən sonra yola salardı. Qonağa qaş-qabaq eləmək ayıb hesab edilmiş, heç bir halda buna yol verilməmişdir. Xalqımızın ən gözəl adətlərindən biri də budur ki, qonaq qəbul edərkən onun imkanına, mövqeyinə baxılmamış, belə demək mümkündürsə, hər kəsə eyni gözlə baxılmış, bütün qonaqlara eyni dərəcədə hörmətlə yanaşılmışdır. Xalq arasında geniş yayılmış inanca görə, gələn qonaq, yaxud da qapıya gələn dilənçi Xızır peyğəmbər ola bilər. Yəni Həzrəti Xızırın özü ev sahibini sınamaq üçün dilənçi, yaxud da qonaq cildində qapını döyə bilər. Türkiyə türkləri arasında məşhur olan "Hər gecəni Qədir, hər gələni Xızır bil" deyimi də, görünür, bu inancın təsiri ilə yaranmışdır. Ona görə də, qapını kimin döyməsindən və nə vaxt döyməsindən asılı olmayaraq hər kəs hörmətlə qarşılanıb yola salınmalıdır. Gələn qonaq "Xoş gəlib, səfa gətirmisiniz", "Qonaq Allah qonağıdır", "Həmişə siz gələsiniz", əgər tanış adamdırsa, "Ay Allah, gör kim gəlib", gec-gec gələn qonaqlar: "A bala, gətirin filankəsin ayağının altına dəmir atın", – kimi ifadələrlə, gedən qonaq isə "Yaxşı yol", "Xeyir apar", "Sağ-salamat get" kimi alqışlarla yola salınır. Münasibət çox yaxın olduqda isə "A bala, gəlişin yaxşıdı, bəs gedişin nə vaxtdır?" kimi

---

[2] Bu məlumatı bizə verdiyi üçün AMEA Folklor İnstitutunun əməkdaşı Ləman Vaqifqızına (Süleymanova) təşəkkür edirik. O, 2015-ci ildə bu faktı Xocavənd rayonundan didərgin düşmüş tərəkəmələrdən folklor toplayarkən qeydə almışdır. Bu haqda heç yerdə yazmadığı, bizə şifahi şəkildə danışdığı üçün qaynaq göstərə bilmirik.

zarfatlarla da qonaq qarşılanrdı. Qonağı yola salarkən hökmən onunla birgə qapıya qədər gedir, lazımdırsa, maşın təşkil edilir. Qonaq evdən elə-belə yola salınmır, onun üçün ayrıca pay yığılır. Bu payın içində geyim əşyaları da, müxtəlif ərzaqlar – kənd məhsulları ola bilər. Qonaq əgər əvvəlcədən hara isə getməyi planlaşdırıbsa, o da getdiyi evə əliboş yox, pay-ürüşlə gedir. Qonaq tərəfindən alınan pay ev sahibi ilə yaxınlıq dərəcəsinə görə yığılır. Əgər ev sahibi yaxın qohumlardan biridirsə, onun evi üçün məişət əşyası, yaxud uşaqları üçün, özü üçün geyim əşyaları alına bilər. Alınmış payın üstünə hökmən konfet, yaxud şirniyyat da əlavə edilir. Bu, belə izah edilir ki, evin uşaqları, yaxud yaşlılar əlimə baxarlar. Əgər qonaq evə əliboş gedərsə, evdəkilər onun əlinə baxar, şişə, yəni umsuna bilərlər. Gedilən evin sahibi ilə qohumluq bağı yoxdursa, o zaman çox vaxt konfet və şirniyyatla kifayətlənirlər.

Azərbaycan xalqında *qonaqçı* ifadəsi də vardır: "Filankəs mənim qonaqçımdır". Yəni həmin şəxs bu kəndə gələndə həmişə bizə düşür. Bəzən də qonaqçılıq qarşılıqlı olur. Ev sahibin də yolu qonaqçısının yaşadığı əraziyə düşəndə yolunu onlardan salır, onlarda qonaq qalırdı. Bəzən bu qonaqçılıq o qədər dərinləşirdi ki, tərəflər arasında qohumluğa çevirilirdi.

Azərbaycanda qonaq və qonaqlığın bir çox növləri vardır: böyük və kiçik toya gələn qonaqlar, yasa gələn qonaqlar, gapa gələnlər (keçmişdə, televizorun, radionun olmadığı dönəmlərdə qonşular vaxtlarını keçirmək üçün gecələr birinin evinə yığışardılar), müxtəlif bayramlarda gələn qonaqlar, bu kimi səbəblər olmadan qəfil gələn qonaqlar, xəstə ziyarətinə gələn qonaqlar və s. Bunlar hər biri ev yiyəsinin, məclis sahibinin qonağıdır və o, qonaqların sayından asılı olmayaraq hər kəsə ayrıca diqqət göstərməlidir. Əgər diqqətdə hər hansı nöqsana yol verilərsə, bu, qonaq, eləcə də ətraf tərəfindən yaxşı qarşılanmır, qınağa, incikliyə səbəb olur. Azərbaycan süfrələrinin, xüsusilə də, məclislərdə açılan süfrələrin zənginliyi hər kəsə yaxşı məlumdur. Müasir dövrdə bu, o qədər ifrat həddə çatmışdır ki, hətta müxtəlif platformalarda, sosial şəbəkələrdə bunun haqlı olaraq qınandığının da şahidi oluruq. Son zamanlar yas süfrələrinin toy süfrələri qədər təmtəraqlı olması da xüsusi diqqət çəkir və bu adət-ənənədən çox, özünü göstərməyə hesablanmış vasitə kimi qiymətləndirilir.

Biz burada kirvə qonaqlığının üzərində xüsusi dayanmağı lazım bilirik. Kirvəlik adətinə daha çox Qarabağ, Şərqi Zəngəzur və Qərbi Azərbaycan əhalisi arasında rast gəlinir. Kirvəlik adəti bu bölgədə o qədər geniş yayılıb ki, "Kirvə kirvənin damının üstünə çıxmaz ki, yeməyinə toz tökülər", "Kirvə qardaşdan irəlidi" kimi atalar sözü və deyimlərin meydana çıxmasına səbəb olub. Uşaq sünnət olunduqdan sonra uşağın *küldənçıxarma* məclisi keçirilir, bu məclisdən sonra isə *kirvə görüşünə* gedilirdi. Hər iki qonaqlıq çox təmtəraqlı keçirilirdi. Küldənçıxarmada sünnət olunmuş uşağı görməyə gedən kirvə və kirvənin yaxın qohumları əllərində xonçalarla, paylarla dolu çemodanlarla gələrdilər. Bəzən bu paylara bir neçə dananın pulunun xərci çəkilərdi. Hətta kirvəsinə qızıl üzük, dana, şifoner kimi hədiyyələr gətirənlər də olurdu. Kirvə görüşünə gedən tərəf də bu payın əvəzini çıxmağa çalışar, qarşı tərəfin aldığı dəyərdə pay almağa səy göstərərdi.

Müasir dünyamızda tez-tez baş verən müharibələr köçlərin sayını artırmış, insanlar ölkənin bir yerindən digər tərəfinə (Qarabağ və Qarabağətrafı ərazilərin işğalında olduğu kimi), bəzən də bir ölkədən digər ölkəyə köçmək (Suriyadan milyonlarla insanın Türkiyəyə pənah gətirməsi, ukraynalıların Avropaya və dünyanın müxtəlif ərazilərinə səpələnməsi və s.) məcburiyyətində qalmışlar. Bu qədər "qonağı" eyni zamanda himayə etmək problemlər yaradır. Xalqımız ta qədimdən köçlər zamanı gələn kütləvi axınların yaratdığı problemlərə görə "El elə sığar, ev evə sığmaz" misalını yaratmışlar. Belə hallar eyni xalqın nümayəndələri arasında etnoqrafik qarşıdurmalar yaradır, müxtəlif xalqların nümayəndələri arasında isə daha böyük anlaşılmazlıqlar – etnik qarşıdurmalara gətirib çıxarır. Düşünürük ki, bu özü də ayrıca tədqiqatın mövzusu olmalıdır. Çünki bu kimi məsələlər Azərbaycanda hansı sosioloji problemləri meydana gətirdi və bundan çıxış yolları nələrdir, bunlar araşdırılmayıb.

Yuxarıda deyilənlərdən belə aydın olur ki, qonaq kultu türk mədəniyyətinnin ayrılmaz tərkib hissəsidir. Elə inanclar vardır ki, türklər islamı qəbul etdikdən sonra onları yaşatmaq üçün "islam donuna bürüməyə" məcbur oldular. Məsələn, Novruz bayramını Həzrət Əlinin taxta çıxdığı gün elan etməklə, pir sahiblərinin qəbirlərini islamı yaymaq üçün əraziyə gələn şəxslərin qəbirləri kimi təqdim etməklə və s. həmin inancları qorumağa xidmət edirdi. Ancaq qonaqla bağlı inanclarda bunu etməyə

ehtiyac qalmadı. Çünki türklər islamı qəbul edəndən sonra məlum oldu ki, islamda da qonağa hörmət etmək xoş qarşılanır. Beləliklə, bu inanc islamın qəbulundan sonra da öz ehtişamını saxlaya bildi.

Müasir dövrdə getdikcə dəyişən dünyada xalqların dəyərləri də dəyişməyə başlamışdır. Əvvəllər bütün təmtərağı ilə mövcud olan qonaq qarşılamaq, qonaq getmək adəti yavaş-yavaş öz yerini pullu xidmətə vermişdir. Günümüzdə "qonaqpərvərlik sosial deyil, iqtisadi ölçüyə üstünlük verən bir xarakter almışdır. Təşkilatlar tərəfindən və ya qurumlar arasında təşkil edilən ticarət tədbirlərində yerli və xarici ziyarətçilər qonaq kimi qəbul edilir, məkanlar onların azadlığı və dincliyi düşünülərək dizayn edilir" (3, s. 132). Xüsusilə də, böyük şəhərlərdə, rayon mərkəzlərində, yol kənarlarında tikilmiş onlarla otel, motel və qonaq evləri qonaqçılıq adətini sıradan çıxarmaqdadır. Bu cür yerlərdə qalan şəxslər artıq bir stəkan çayın, suyun pulunu belə ödəməkdədirlər. Mənəvi dəyərlərimiz, təəssüf ki, getgedə öz yerini alınıb-satılan xidmətlərə verməkdədir.

Bəzi bölgələrdə qonaqpərvərliklə bağlı dəyərlərin itirilməsinin qarşısını almaq üçün məktəblilərlə birgə xüsusi tədbirlər keçirilir. ""Altın Köprü" (Altınköprü İraq türkmanlarına aid şəhərdir – M.S.) türkcəsinin B1 səviyyəli tədrisi dərsliyində "Qonaq təlaşı" adlı dinləmə fəaliyyətində də qonaqları qəbul etməyin vacibliyindən bəhs edilir. Bu fəaliyyət türk mədəniyyətində qonaqpərvərliyin yerini və əhəmiyyətini vurğulayır və tələbələrə bu anlayışı anlamağa kömək edir. Burada vurğulanır ki, qonaqların qəbulu təkcə ənənə deyil, həm də sosial əlaqələri gücləndirmək üçün bir fürsətdir. Beləliklə, "Qızıl Körpü" Türkcə Dərsləri vasitəsilə tələbələr türk mədəniyyətinin əsas dəyərlərindən biri olan qonaqpərvərliyi öyrənir və dil bacarıqlarını inkişaf etdirmə prosesində bu dəyərləri mənimsəyirlər (8, s. 202). Düşünürük ki, Azərbaycan məktəblərində də bu cür tədbirlərin keçirilməsi yaxşı olardı.

## ƏDƏBİYYAT


1. Hayriye Durkaya. Ahlaki mesnevilerde misafirlik kavramı \\ Rumelide Dil ve Edebiyat Araştırmaları Dergisi, (28), 369-382. https://dergipark.org.tr/en/download/article-file/2494088
2. Hikmet Demirci, Şınaray Bürkütbayeva. Kazak Misafirperverliği: Ülüş, Misafir Ağırlama ve Tabak Kültürü.\\ Millî Folklor, 2020, Yıl 32, Cilt 16, Sayı 126, ss.198-209
3. İrfan Yıldırım. Şırnak'ta Misafirperverlik Kültürü Üzerine Bir Araştırma. // Kültür Araştırmaları Dergisi, 2022, 14: 122-152
4. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə: Fərhad Zeynalov və Samət Əlizadə. Bakı, Yazıçı, 1988, 265 səh.
5. Qərbi Azərbaycan folkloru. IV cild. Toplayanlar: fil.ü.d., dos. Hikmət Quliyev, fil.ü.d., dos. Səfa Qarayev, fil.ü.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Tərtib edən və ön sözün müəllifi: fil.ü.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, "Elm və təhsil", 2025, 416 səh.
6. Ramazan Arı. Türk Misafirperverliği: Klasik Türk Şiirinde Mihman. \\ Türk Kültürü İncelemeleri Dergisi 46, İstanbul 2021, 213-252.
7. Şeyma Mert. Burdur'da Misafir Odası Bağlamında Misafir Ağırlama Geleneğinin Günümüzdeki Durumu \\ Bitig Türkoloji Araştırmaları Dergisi, Bahar 2024 / 1: 65-76.
8. Sibel Barçın. Altın Köprü Türkçe Öğretimi Kitaplarında Sosyokültürel İçerik: Yemek Unsurları Örneği. \\ Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 14/1 2025 s. 192-208, Türkiye


***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**
**"Sosial fəlsəfə və ekoloji problemlər"**
**şöbəsinin elmi işçisi.**
**E-mail:suleymanova.mehseti@mail.ru.***

**Mehsati Suleymanova**

## GUEST CULT IN AZERBAIJAN CULTURE

Sometimes a person has to travel, leave their home, and at this time they need a temporary place to stay, food, drink, etc. In the past, when there were no hotels, motels, or guest houses like today, caravanserais operated in large cities and residential areas belonging to the Turks to meet this need of people. However, at that time, not all settlements had caravanserais. Therefore, people had to take on the function of caravanserais, welcoming the guest into their homes and trying to meet all his needs. One might ask, what motivated people to welcome a stranger into their homes and meet all his needs? Considering that in the past, there were no large, multi-roomed houses or an abundance of food like there are today, there must have been a certain belief behind this situation, so that people would take care of someone they didn't know at the expense of their own comfort. This belief is the belief in the guest of God. Since the guest was considered a person sent by God, it was considered important for the host to welcome him with a smile and meet all his necessary needs, and every effort was made to do so.

**Keywords:** *cult, belief, guest of God, caravansary, custom*

**Махсати Сулейманова**

## КУЛЬТ ГОСТЯ В АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЕ

Иногда человеку приходится путешествовать, покидать свой дом, и в это время ему требуется временное место для проживания, еда, питье и т. д. В прошлом, когда не было таких гостиниц, мотелей или гостевых домов, как сегодня, для удовлетворения этой потребности людей в крупных городах и жилых районах, принадлежавших туркам, действовали караван-сараи. Однако в то время караван-сараи были не во всех поселениях. Поэтому людям приходилось брать на себя функцию караван-сараев, приглашая гостя в свои дома и стараясь удовлетворить все его потребности. Возникает вопрос: что побуждало людей приветствовать незнакомца в своих домах и удовлетворять все его потребности? Учитывая, что в прошлом не было больших многокомнатных домов и такого изобилия еды, как сегодня, за этой ситуацией, должно было стоять определенное поверье, согласно которому люди проявляли заботу о незнакомых людях в ущерб собственному комфорту. Эта вера – вера в гостя Божьего. Поскольку гость считался посланником Бога, хозяину дома считалось важным встретить его с улыбкой и удовлетворить все его потребности, и для этого прилагались все усилия.

**Ключевые слова:** *культ, вера, гость Божий, караван-сарай, обычай*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 02.04.2025**
**Son daxilolma tarixi:14.05.2025**